# ÇƏTİNLİKLƏR ONU RUHDAN SALMIRDI



**Həyat qəribəliklərlə doludur. 1955-ci ildə səkkizinci sinfi bitirib Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olmağa hazırlaşırdım. O vaxt 15 yaşım vardı. Bir gün xalam qızı Səyyarə əl işlərimə baxıb dedi: "Gəlsənə çəkdiyin şəkilləri mənim tanışım Vəcihə Səmədovaya göstərək, ondan bir məsləhət alaq".**

**Artıq o dövrdə Vəcihə xanım portret və mənzərə ustası kimi tanınırdı. Onun yağlı boya ilə çəkdiyi "Aktrisa Leyla Bədirbəylinin portreti" sənətsevərlər və mütəxəssislər tərəfindən çox maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdi...**

Biz V.Səmədova ilə onun İçərişəhərdəki mənzilində görüşdük. Həyat yoldaşı rəssam Lətif Feyzullayev də evdə idi. Onlar çəkdiyim şəkillərə baxıb bəzi məsləhətlərini də verdilər. Hətta Vəcihə xanım sənədlərimi məktəbə vermək üçün mənim adımdan ərizə də yazdı. Biz orada olanda təxminən 9–10 yaşlarında oğlan uşağı bir tərəfdə oturub qarşısındakı kağız parçalarında cızma-qara edirdi.

İmtahanlardan çıxsam da, balım çatmadığı üçün rəssamlıq məktəbinə daxil ola bilmədim. Sonralar oğlum Ələsgər isə həm rəssamlıq məktəbini (məhz Lətif Feyzullayevin sinfini), həm də İncəsənət İnstitutunun rəssamlıq fakültəsini bitirdi.

İş elə gətirdi ki, mən indiki Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb kino sahəsində işləməyə başladım və günlərin birində C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında cavan bir oğlanla tanış oldum. Bu, Vəcihə Səmədovanın evində gördüyüm, vərəqlərində cızma-qara edən balaca oğlan, bu gün kinorejissor kimi tanınan Nicat Feyzullayev idi. Maraqlandım, məşhur rəssamlar ailəsində böyüməsinə baxmayaraq, nə üçün rəssam olmadığını soruşdum.

– Orta məktəbdə oxuyanda musiqi məktəbinə də gedirdim, – dedi. – Məktəbin skripka üzrə sinfində təhsil almışam. On bir il skripka çalmışam. Onuncu sinfi bitirəndə astrofizik olmaq istəyirdim. Amma fikrimi dəyişib sənədlərimi konservatoriyanın bəstəkarlıq fakültəsinə verdim. Ancaq burada da qərar tuta bilmədim. Atam hərdəmxəyal olduğumu görüb dedi ki, sən riyaziyyatı yaxşı bildiyinə görə get, Politexnik İnstitutunda oxu. Mən belə də etdim. Ancaq ikinci kursda oxuyanda ali məktəbdən çıxmaq istədim. Atam qoymadı, institutu bitirib elektronika mühəndisi ixtisasına yiyələndim. Amma həyatda hələ də öz yerimi axtarıb tapa bilmirdim ki, bilmirdim...

Nicat Politexnik İnstitutunda oxuduğu illərdə təhsil ocağı nəzdində həvəskar kinostudiya fəaliyyət göstərirdi. O bu studiyada bir neçə qısametrajlı film çəkmişdi. Görünür, məhz kino ilə məşğul olması Nicata başqa sənət sahələrinə getməyə imkan vermirmiş. Uzun götür-qoydan, axtarışlardan sonra Nicat Feyzullayev kinematoqrafı özünə peşə seçdi və 1970-ci ildə "Azərbaycanfilm" kinostudiyasına işləməyə gəldi.

Nicatın kinostudiyada ilk işi rejissor Arif Babayevin 1971-ci ildə quruluş verdiyi "Gün keçdi" lirik kinopovestində oldu. O bu filmdə rejissor köməkçisi işlədi. Ardınca elə həmin il rejissor Kamil Rüstəmbəyovun "Axırıncı aşırım" kinoromanının çəkilişlərində iştirak etdi. Rejissor Tofiq Tağızadənin 1972-ci ildə istehsal olunmuş "Qızıl qaz" psixoloji kinopovestində işləməklə bu sahədə biliyini xeyli artırdı. Həmin filmdə çalışandan sonra Nicatı xeyli müddət kinostudiyada görmədim.



1975-ci ilin isti yay günlərinin birində kinostudiyada N.Feyzullayevlə yenidən görüşdük. Hal-əhval tutduqdan sonra bildirdi ki, o, kino sahəsində savadını artırmaq üçün Azərbaycan Dövlət Kinematoqrafiya Komitəsindən heç bir göndəriş almadan Leninqrada gedib Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun kino və televiziya rejissorluğu fakültəsinə daxil olub. Söhbət əsnasında müəllimlərindən, təhsilin necə getməsindən danışdı. Gələcəkdə nə işlər görəcəyini, hansı mövzuda filmlər çəkəcəyini dedi. Başa düşdüm ki, Nicat həyatda məhz kinematoqrafda öz yerini tapıb, gələcəkdə nə iş görəcəyini yaxşı təsəvvür edir.

N.Feyzullayev institutda oxuduğu illər artıq iki film çəkmişdi: "Azərbaycanın memarlıq abidələri" və "Toy". "Azərbaycanın memarlıq abidələri" sənədli filmi 1976-cı ildə Azərbaycan Maarif Nazirliyinin sifarişi ilə lentə alınıb. Bu tədris filmi xalqımızın yaradıcılıq dühasını, həyat tərzini və estetik görüşlərini əks etdirən, respublikamızın tarixi memarlıq abidələrindən bəhs edən filmdir.

"Toy" qısametrajlı bədii filmi isə yazıçı İsa Hüseynovun hekayəsi üzrə çəkilib və üç novelladan ibarət "Arvadım mənim, uşaqlarım mənim" kinoalmanaxına (1978) daxil edilib. Kinonovella mənəviyyat problemlərinə həsr olunub.

> **Bir dəfə Nicatla söhbət edəndə o bu filmdən narazı qaldığını, hətta ondan imtina etdiyini bildirdi. Mən çaşıbqalmışdım, axı necə ola bilər: rejissor da öz çəkdiyi filmdən imtina edə bilərmi? Təəccübləndiyimi görüb dedi: "Qəribə adamlardır. Hekayə İsa müəllimindir. Mən həmin hekayəni ekranlaşdırandan sonra ona antisovet adını qoydular. Axı burda antisovetlik nə var? Sən bunun süjetinə bir fikir ver. Camaat pul hesabına təşkil olunan toydan imtina edir. Filmi qayçıladılar, pis günə qoydular, mən də ondan ürək ağrısı ilə imtina etməli oldum".**

Bu filmdə rollarda Şahmar Ələkbərov (kolxoz sədri, bəyin qardaşı), Hacı İsmayılov (bəy), Məmmədrza Şeyxzamanov (sərpayı), Kazım Abdullayev (traktorçu) kimi sənətkarlar çəkiliblər.

Nicat institutu bitirəndən sonra iki qısametrajlı və bir tammetrajlı bədii filmə quruluş verib. Bunlardan biri "Yeni evlənənlər" adlanır (1983). Qısametrajlı filmdə müasir kənd həyatından, yeni adət və ənənələrdən söhbət açılır, bəzi köhnəfikirli adamlar tənqid olunur. Rejissor "Yeni evlənənlər" filmini "Mosfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən "Debüt" studiyasının sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasının bazasında çəkib. Adından da göründüyü kimi, film yeni ailə quran gənclərdən söhbət açır. Amma N.Feyzullayev bu filmin çəkilişi ilə bağlı mənə qəribə əhvalat danışdı: "Yeni evlənənlər"i də antisovet filmləri siyahısına salmaq istəyirdilər. Filmi maraqlı süjet üzərində qurmuşdum. Eyni kənddə yaşayan iki gənc kənd sovetinə gəlib evlənmək üçün ərizə verir. Sonra məlum olur ki, bu oğlanla qız sənədlərə əsasən kənddə evlənən mininci cütlükdür. Kənd sovetinin sədri çıxışında bildirir ki, bu, əlamətdar hadisədir, amma məsələ ondadır ki, qız çalışdığı sahədə qabaqcıl və zərbəçidir. Ancaq oğlan bu məsələdə ondan geri qalır. Bu söhbətdən sonra qabaqcıl və zərbəçi olan oğlan axtarırlar. Qızın babası bunu eşidib mərasimə gəlir, deyir ki, 70 ildir qarımla ömür sürürəm, bizim heç zaqsımız da yoxdur. Siz də burda zərbəçi, qabaqcıl məsələsini ortaya atmısınız.



"Yaşa, qızıl balıq" filminin çəkilişi zamanı

Filmdə kənd sovetinin sədri Qurban kişi roluna aktyor Məcnun Hacıbəyovu çəkmişdim. O bu rolu çox gözəl oynamışdı. Bax bu filmə görə başım çox ağrıdı. Mənə dedilər ki, film sovet ideologiyasının tələblərinə cavab vermir. O "başbilənləri" başa salana qədər əsəblərim tarıma çəkildi. Mənim bir qısametrajlı bədii filmim də var, adı "Yaşa, qızıl balıq"dır. Ssenarisini yazıçı Natiq Rəsulzadə ilə yazmışıq. "Debüt" studiyasında 1988-ci ildə çəkdiyim "Yaşa, qızıl balıq" mənəvi-psixoloji dramdır".

Mən ona bir neçə dəfə baxmışam. Çox ibrətamiz filmdir. Laqeydlik əsas süjet xəttini təşkil edir. Laqeydlik – bu bizim narahat dünyamızın əsas bəlasıdır və onunla mübarizə hər birimizin vətəndaşlıq borcudur. Film tamaşaçıları öz həyat mövqeyi üzərində düşünməyə, bundan bir nəticə çıxarmağa vadar edir.

Bir dəfə Nicatdan soruşdum ki, kinoda işlədiyin on il ərzində cəmi üç qısametrajlı bədii film çəkmisən. Nə əcəb tammetrajlı bədii filmə qol qoymursan? Cavabı çox qısa oldu, yarıciddi-yarızarafatla dedi: "Bu barədə kinonun rəhbərləri ilə söhbətim olub. Mənə dedilər ki, tammetrajlı film çəkmək üçün hələ cavansan. Bir az gözlə".

Biz bu barədə söhbət edəndə Nicatın nə az-nə çox, düz 43 yaşı vardı. Hələ də kinonun rəhbərlərindən müsbət cavab gözləyirdi. Nəhayət, cavab on altı ildən sonra gəldi. Bu, Nicatın özünün yazdığı "Küçələrə su səpmişəm" ssenarisi idi.

N.Feyzullayev ssenarini yazıçı İsi Məlikzadənin povesti əsasında yazmışdı. Kinostudiyanın redaksiya heyətinin iclasında ssenarinin müzakirəsi ilk dəfə 1987-ci il martın 13-də keçirildi. Müzakirədə çıxış edənlər ssenarinin zəif olmasından danışdılar, təkcə böyük redaktor Aydın Dadaşovdan başqa. A.Dadaşov çıxışında dedi ki, bu

əsərin ekrana çıxarılması fikri təqdirəlayiqdir: "Ədəbiyyatda İsi Məlikzadənin yaratdığı Xəlil obrazı mənə doğmadır. Maraqlıdır ki, belə bir obraz Məlikzadənin bütün əsərlərində var. Ssenari müəllifi N.Feyzullayevin ixtisasca rejissor olması yazı tərzində dramaturgiyadan uzaqlaşıb birbaşa kinolaşmaya gətirib çıxarır. Ümumiyyətlə, mən ssenarinin tərəfdarıyam və burada maraqlı bir film görürəm..."

İclasda təklif olundu ki, ssenari kinostudiyanın perspektiv planına daxil edilsin və ssenari üzərində yenidən işləmək üçün səriştəli bir ssenariçi Feyzullayevə qoşulsun. Belə də oldu. Ssenarinin sonrakı variantları üzərində iki müəllif – İsi Məlikzadə və Nicat Feyzullayev işlədi.

İllər ötdü, 2003-cü ildə eşitdim ki, Nicat, nəhayət, "Küçələrə su səpmişəm" filmini çəkir. Filmdəki əsas rollara Fuad Poladovu (Xəlil), Rasim Balayevi (Bəhmən) və Mehriban Zəkini (Xəlilin arvadı) dəvət edib. Maraqlı aktyor heyətidir.

Nəhayət, bu film 2004-cü il avqustun 2-də – Milli Kino günü tamaşaçılara təqdim olundu. Mövzusu müasir həyatdan götürülən, günümüz üçün çox aktual məsələlərə toxunan "Küçələrə su səpmişəm", psixoloji melodram janrında çəkilmiş bu film ekranlara buraxılandan sonra tamaşaçılar tərəfindən birmənalı qarşılanmadı. Tənqidi fikirlər isə daha çox oldu. Mətbuatdakı bir çıxışdan: "Sənətdə öz yerlərini tutmuş aktyorlarımız obrazlarını nə qədər dolğun, koloritli yaratsalar belə, filmin ideyası, mahiyyəti sona qədər başa düşülmür. Filmin təqdimat mərasimində deyildiyi kimi, "Küçələrə su səpmişəm"in əsl qiymətini zaman verəcək."

Zaman həqiqətən hər şeyi öz yerinə qoyur. Vaxtilə "O olmasın, bu olsun" kinokomediyası ekranlara buraxılandan sonra mətbuatda çap olunan resenziyalarda film tənqid atəşinə tutuldu. Amma müəyyən vaxt keçəndən sonra bu film haqqında yalnız xoş sözlər yazıldı.

Bu filmdə müəlliflər xarakterlərinə görə tamamilə bir-birindən fərqlənən iki əmioğlunun taleyindən, birinin digərinə olan xəyanətindən söhbət açırlar. Film 2005-ci ildə Beynəlxalq "Bakılı" Cəmiyyətinin "Humay" ilahəsi mükafatına, aktrisa Mehriban Zəki isə "Qadınlıq rəmzini tərənnüm edən ən yaxşı obraz" nominasiyası üzrə VII "Şərq-Qərb" Bakı Beynəlxalq Kinofestivalının mükafatına layiq görüldü.

**Azərbaycan filmlərinin izahlı kataloqunu hazırlayarkən Nicatın çəkdiyi sənədli filmlərin siyahısını tutub onunla görüşməyi qərara aldım. Görüşdük. Siyahıya baxan kimi gözü "Şirvanda izim qaldı" filminin adına sataşdı.**
**– Bu film Şirvanşahlar dövləti barəsindədir, – dedi. – Azərbaycan müstəqillik əldə edəndən sonra, yəni ilk illərdə özlərindən bədgüman olan adamlar belə fikir söyləyirdilər ki, bizim üçün müstəqil yaşamaq çətin olacaq. Elələri dərk edə bilmirdilər ki, Azərbaycanın dövlətçilik ənənəsi olub.**

Onu 1993-cü ildə çəkmişəm. Azərbaycan dövlətçilik tarixində böyük xidmətləri olan Şirvanşahlar haqqındadır. Burada həmçinin o dövrdən bizim günlərə qədər qorunub saxlanılmış tarixi və memarlıq abidələri barəsində də söhbət açılır. Filmin ssenarisini Solmaz Əliqızı ilə birgə yazmışam.

Mən Nicata Azərbaycan kinosu günləri ilə bağlı Özbəkistanın müxtəlif yerlərində, o cümlədən Nərimanov şəhərində nümayəndə heyətimizin olduğunu dedim. O da bu gənc şəhərə "Belə bir şəhər var" filmini həsr edib.

Filmdə Özbəkistanın Nərimanov şəhəri haqqında söhbət açılır. Kadrların bir çoxu həmyerlimiz, görkəmli dövlət xadimi, yazıçı və həkim Nəriman Nərimanovun adı ilə bağlı yerlərdə çəkilib.

**Vaxtilə 70–80-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gəncləri ali təhsil almaq üçün Sovet İttifaqının müxtəlif şəhərlərinə göndərilirdi. Bununla əlaqədar N.Feyzullayev 1980-ci ildə "Anaya məktub" filmini çəkib.**

Filmdə SSRİ-nin müxtəlif şəhərlərində o vaxt təhsil alan həmyerlilərimizdən bəhs edilir.


Nicat Feyzullayev və oğlu Aqşin

Təhsillə bağlı rejissor N.Feyzullayevin daha bir filmi var: "Məhəmməd Füzuli" (1989). O bu kinolenti Azərbaycan Xalq Təhsil Komitəsinin sifarişi ilə çəkib. Tədris filmi dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yaradıcılığına həsr olunub. Nicat bu filmin ssenarisini Əliyar Səfərli ilə birgə qələmə alıb.

Nicat Feyzullayev Azərbaycan müstəqil olandan sonra da bir neçə film, o cümlədən "Qara qızılın qara üzü" (1990), "Abşeronda subtropik bitkilər" (1991), "Baba zeytun diyarında" (1992), "Azərbaycan mətbəxinin rəngləri" (2008), "Azərbaycan rəngkarlığının kraliçası" (2010), "Aşiqi-sadiq" (2015) və s. sənədli filmlər çəkib.

Rejissor Azərbaycan Neft və Qaz Sənayesi Fəhlələri Həmkarlar İttifaqı Respublika Komitəsinin sifarişi ilə lentə aldığı "Qara qızılın qara üzü" filmi ilə bağlı ötən günləri xatırlayaraq deyir: "Bilirsənmi, çox vaxt biz üstündə yaşadığımız torpağın ağrısını duya bilmirik. Sovet dövründə gözlərimiz qarşısında milyon hektarlarla torpaqlarımız məhv olur, zəhərlənir və münbitliyini itirirdi. Torpaqlar təmizlənmədiyi üçün yararsız vəziyyətə düşürdü. Amma düşünmürdük ki, bu nemәti biz gələcək nəsillər üçün qorumalıyıq, axı bizim üçün də onu qoruyublar. Torpaq müqəddəslərin müqəddəsi, and yerimizdir.

90-cı illərin əvvəllərində çəkilişləri Bakının Əzizbəyov bölgəsində, Pirallahı adasında aparmışıq. Gözəl Abşeron torpağına doğrudan da qəsd edildiyini göstərməyə çalışmışıq".

Onu da qeyd edim ki, kinooçerk "qara qızıl"ın respublikadan daşınıb aparılması və ekoloji problemlər yaratmasından sənədli kinonun dili ilə, tutarlı faktlarla söhbət açır.

Nicat "Azərbaycan mətbəxinin rəngləri" filminin adını görcək dilləndi: "Bunu çəkməzdən əvvəl mən Azərbaycan mətbəxi barədə film yaratmaq istəyirdim. Çoxseriyalı olmalı idi. Ermənilər Kanadada beynəlxalq kulinariya festivalında səbziplovu nümayiş etdirməklə qızıl medal almışdılar. Biz bu yalançı faktı görüb sakit otura bilməzdik. Məşhur aşpaz Tahir Əmiraslanovla filmin ssenarisini yazdıq. Amma onu həyata keçirə bilmədik. Bundan sonra İslam Mədəniyyəti Konfransı ilə bağlı kiçik bir film çəkdik. Bu, Bakının İslam Mədəniyyətinin Mərkəzi elan olunması ilə əlaqədar tədbirlər silsiləsinə daxil idi. Rejissor Şamil Əliyev xalçalar, Ziya Şıxlinski isə musiqi haqqında film çəkdi".

Kinopublisistikanın əsas vəzifəsi dövrümüzü bütün rəngarəngliyi ilə əks etdirməkdən ibarətdir. O bizim cəmiyyətimizin salnaməsini yaratmağa xidmət edir. Biz bunu N.Feyzullayevin həvəslə lentə aldığı, haqqında söhbət açdığımız və adlarını çəkdiyimiz sənədli filmlərdə görə bilərik.

Nicatın son iki filmi – "Azərbaycan rəngkarlığının kraliçası" və "Aşiqi-sadiq" onun valideynlərinə – görkəmli rəssamlar, əməkdar incəsənət xadimləri Vacihə Səmədovaya və Lətif Feyzullayevə, onların mənalı həyat və yaradıcılıq yollarına həsr olunub. Filmdə hər iki rəssamın həmkarları, bu gün Azərbaycan təsviri sənətinin qabaqcıl nümayəndələri olan tələbələri, eləcə də onları tanıyanlar rəssamlar haqqında öz xatirələrini bölüşüblər.

Filmdə eyni zamanda rəssamların tabloları da əks etdirilib. Filmlərin ssenarilərini ata və oğul – Nicat və Aqşin Feyzullayevlər yazaraq nənə-babalarına, ana-atalarına kinematoqrafik abidə ucaldıblar.


İşıqçılar: Nizami, Abbas
Kinooperator və Aqşin Feyzullayev

Axırıncı dəfə Nicatla Mədəniyyət və Turizm Nazirliyində görüşdüm. Hal-əhval tutduq. Yeni bir ssenari üzərində işləyib-işləmədiyini soruşdum. "Tammetrajlı bədii filmin ədəbi ssenarisi hazırdır, – dedi. – Hətta "Fokus" jurnalında çap olunub. Bu film də mahnı üzərində qurulacaq. Adı populyar olan bir mahnıdan götürülüb: "Əgər qismətim olarsa..." Həmin mahnı filmin leytmotivini təşkil edəcək. Ədəbi ssenarinin ikinci variantı da hazırdır.

Film Bakı–Ceyhan neft kəmərinin təsviri ilə başlayacaq. Filmin baş qəhrəmanı xarici şirkətin işçisinin dediklərini fəhlələrə tərcümə edir. Bu rola məşhur aktyorumuz Fuad Poladovu nəzərdə tutmuşam. O, ixtisasca astrofizikdir. Təxminən 35 yaşı var. Özündən xeyli cavan qızla görüşür. Məhz onların hər dəfə görüşləri zamanı "Əgər qismətim olarsa..." mahnısı səslənir. Filmboyu maraqlı əhvalatlar baş verir.

Bundan başqa, 20 Yanvar hadisələri ilə bağlı ssenarini də başa çatdırıram. Əgər qismətim olsa...

O bu sözləri deyib susdu. "Darıxma, Nicat, – dedim. – Çətinliklə başa gələn işin axırı yaxşı olur".

Mən ona uğurlar arzulayıb ayrıldım və bir daha kinostudiyada Nicata rast gəlmədim.

**2015-ci ilin noyabr ayında Azərbaycan Dövlət Film Fondunda biz rejissor Nicat Feyzullayevin 70 illiyini qeyd etdik. Yubiley tədbirinə onun ailə üzvləri, dost-tanışları, kino işçiləri toplaşmışdı. Məclisdə Nicatın ünvanına xoş sözlər deyildi, həmkarları onun çəkdiyi filmlərdən söhbət açdılar. Amma məclis yubilyarsız keçdi. Çünki Nicat Feyzullayev artıq aramızda yox idi – 2015-ci il mayın 4-də 69 yaşında dünyasını dəyişmişdi. Nə "Əgər qismətim olarsa..." filmini çəkmək, nə də öz 70 illik yubileyində iştirak etmək ona qismət olmadı...** ❖

Aydın Kazımzadə,
kinoşünas